BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2006

# C.MƏMMƏDQULUZADƏ VƏ QADIN AZADLIĞI PROBLEMİ

**T.K.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***

*Elmi məqalə XIX əsrin sonunda – XX əsrin əvvəlində Azərbaycan inqilabi-demokratik siyasi fikrinin inkişafında böyük rolu olan görkəmli mütəfəkkir C.Məmmədquluzadənin qadın azadlığı problemi ilə bağlı baxışlarına həsr olunmuşdur.*

*Məqalədə ilkin mənbələrin təhlili əsasında müsəlman qadınlarının ictimai, xüsusilə də ailə-nikah münasibətlərindəki vəziyyəti, onların emansipasiyası və qadına kişilərlə bərabər siyasi hüquq və azadlıqların verilməsi, cəmiyyətin sosial-iqtisadi həyatında onların fəallığının təmin edilməsi məsələləri üzrə mütəfəkkir tərəfindən nəşr edilən «Molla Nəsrəddin» jurnalının ideya siyasi istiqaməti təhlil edilmişdir.*

XIX əsrin sonlarına doğru qadın azadlığı Azərbaycanın qabaqcıl mütəfəkkirlərini dərindən düşündürən məsələlərdən biri olmuşdur. Müsəlman qadınının xarici mühitdən təcrid olunmuş kölə vəziyyətinə biganə qalmayan Azərbaycan ictimai fikrinin qabaqcıl nümayəndələri istibdad şəraitində qadınlarla kişilərin qeyri-bərabər vəziyyətini böyük ictimai ədalətsizlik sayırdılar. Bu səbəbdən də mövcud quruluşun haqsızlıqlarını tənqid edəndə qadın hüquqsuzluğunun tənqidi üzərində xüsusi dayanır, qadınların ictimai həyatda fəaliyyətə cəlb edilməsi, onların kişilərlə hüquq bərabərliyinin təmin edilməsi haqqında fikirlər aşılayırdılar.

Qadın azadlığının tərəfdarlarının ən böyük xidməti qadın məsələsini mövcud quruluşa qarşı, bütün xalqın azadlığı uğrunda ümumsiyasi mübarizənin ayrılmaz hissəsi kimi qiymətləndirmələri idi.

Qadın azadlığına dair ideyalar Azərbaycan ziyalılarının qabaqcıl nümayəndələrindən M.F.Axundovun, F.Köçərlinin, M.Şaxtaxtlının, H.Minasazovun, Ə.Haqverdiyevin, M.S.Ordubadinin, C.Məmmədquluzadənin, N.Nərimanovun və başqalarının baxışlarında əhəmiyyətli yer tutmaqla yanaşı, qadınların fəal ictimai qüvvəyə çevrilməsi uğrunda mübarizə onların əsas vəzifələrindən birini təşkil etmişdi.

Cəmiyyətin irəliyə doğru inkişafında sosial tərəqqinin rolunu qiymətləndirən mütəfəkkirlər hesab edirdilər ki, ictimai tərəqqiyə yarısını qadınlar təşkil edən xalqın əli ilə nail olmaq mümkündür. Onlar bəyan edirdilər ki, qadınlar ictimai həyata fəal surətdə cəlb edilmədən tərəqqi mümkün deyildir.

Fikrimizi əsaslandırmaq üçün qadınların feodal münasibəti buxovlarından qurtuluşu məsələsinə xüsusi diqqət yetirən Azərbaycan maarifçilərindən bəzilərinin baxışlarına müraciət etmək yerinə düşərdi. Məsələn, tanınmış ictimai xadim, inqilabçı-demokrat Hüseyn Minasazov

yazırdı: «Mən şübhə etmirəm ki, siz bir məsələdə fikrimə şərik olacaqsınız: nə qədər ki, qadın məsələsi həllini tapmayıb, nə qədər ki, müsəlman qadını biabırçı kölə vəziyyətindədir, nə qədər ki, «arvad» sözü müsəlmanlar arasında ən təhqiramiz sözdür, nə qədər ki,. analarımız və həyat yoldaşlarımız zülmət, mövhumat və cəhalət içərisindədir, müsəlmanların ümumbəşər mədəniyyətinə qoşulması, tərəqqi, sivilizasiya və onun şəxsiyyət, söz, əqidə azadlığı və s. kimi digər atributlarının tərəfdarı olması haqqında gurultulu bəyanatlarımız qeyri-səmimi və kobud lovğalıqdan başqa bir şey olmayacaqdır»[1].

Azərbaycanın görkəmli maarifçilərindən biri Məhəmməd Ağa Şahtaxtlı qadın azadlığı məsələsini Zaqafqaziya müsəlmanları üçün çox böyük əhəmiyyətə malik problem kimi qiymətləndirirdi.[2] Mütəfəkkirin fikrincə, qapalılıq «qadının köləyə çevrilməsi ilə məhdudlaşmayıb, onu cansız əşyaya çevirir...qadını ümumxalq həyatından kənarda qoyur. Məhbus zindana məhkum olunduğu kimi, qadın da öz evinə məhkumdur. O, həyatın nə olduğunu bilmir. Qapalılıq müsəlman qadınını cismən xəstə, əqlən zəif edir»[3]. M.A.Şaxtaxtlı hesab edirdi ki, Şərqdə kişilərin qadınlara qeyri-normal münasibəti «güclülərin zəiflər və acizlər üzərində hökmranlığında və istibdadında ifadə olunur»[4].

Səciyyəvi haldır ki, qadın məsələsi Azərbaycan maarifçiləri tərəfindən cəmiyyətdə qadının yerinin müəyyən edilməsi və qadına kişilərlə bərabər siyasi hüquq və azadlıqların verilməsi yolu ilə onun hüquqi vəziyyətinin möhkəmləndirilməsi mövqeyindən həll olunurdu. Beləliklə, tamhüquqlu cəmiyyət üzvü kimi qadının ictimai və hüquqi vəziyyəti onun ictimai fəallığının tərkib hissəsi kimi çıxış edirdi.

Qadının ictimai vəziyyəti məsələsi, ilk növbədə, qadının şəxsiyyət kimi təşəkkülü ilə bağlı idi. Əsas məsələ qadında ictimai həyata maraq, meyl oyatmaqdan ibarət idi. Əsrlərlə itaət zənciri vurulmuş qadın psixologiyasını qadının yeni rolunun – yaradıcı rolunun, mədəni-tarixi proseslərin şüurlu subyekti rolunun dərkinə istiqamətləndirmək zəruri idi. Feodal-dini ideologiyanın hökmranlığı nəticəsində formalaşmış qadın şüuru ictimailik əlamətləri kəsb etməli idi. Bu zaman qabaqcıl mütəfəkkirlər qadını yarımçıq insan kimi təqdim edən və hər hansı şəxsi keyfiyyətlərindən məhrum edən mürtəce ideologiyanın əksinə olaraq, müsəlman qadının öz sosial rolunu dərk etməyə qadir olduğunu göstərirdilər, bu keyfiyyət isə yalnız qadının müsəlmanların mədəni-ictimai həyatına cəlb edilməsi nəticəsində üzə çıxa bilərdi.

Qadın azadlığı məsələsini maarifçi fikir köhnə adət və ənənələrin daşıyıcılarına qarşı kəskin mübarizədə müdafiə etməli olurdu. Mürtəce dairələr mövhumatçı baxışlara istinad edərək, qadın əsarətinin, çadranın zəruriliyini əsaslandırır və qadının təhsil almasının gərəksizliyini sübuta yetirməyə çalışırdılar. Onlar bu mövqeyi müsəlman qadınların əxlaqının qeydinə qalmaları ilə izah edirdilər.

---

[1] «Zakavkazye» qəzeti, 1907, № 118; 1919, № 208.

[2] Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerklər). – Bakı, 1984, s. 189.

[3] Шахтахтинский М. Кризис мусульманской жизнеспособности. / Турецкий сборник, 1909. С.112-113.

[4] «Novoye obozreniye» qəzeti, 1895, № 4115.

Azərbaycan maarifçilərinin irəli sürdükləri «qadın cəmiyyətdə layiqli yerini tutmalıdır»[4], «müsəlman qadını köləlikdən insan həyatına keçməlidir»[5], «nəhayət, qadına insan kimi hörmət etmək vaxtı çatmışdır»[6] tələbləri sübut edirdi ki, onların cəhdləri, ilk növbədə, qadının şəxsiyyət kimi özünütəsdiqinə, onun fərdiyyət, fikir və iradə azadlığına yönəlmişdi.

Bu dövrdə qadınların təhsili məsələsi qabaqcıl mütəfəkkirlərin əsərlərində çox kəskin şəkildə qoyulurdu. Əsrlərlə evə məhkum olunmuş müsəlman qadının təhsil alması yolunda şəriət normalarını rəhbər tutan xurafatçı mollalar və mürtəce ziyalılar keçilməz maneəyə çevrilmişdi. Məktəblərdə təhsil alan qadınların sayı bütün əhaliyə nəzərən və təhsil alan kişilərlə müqayisədə cüzi idi.

Qadın azadlığı problemi XIX əsr Azərbaycan maarifçilərinin qabaqcıl nümayəndələrindən biri olan C.Məmmədquluzadənin yaradıcılığından da yan keçməmişdir.

Öz sələflərinin, xüsusilə Azərbaycan inqilabçı-demokratlarının görkəmli nümayəndəsi, filosof və mütəfəkkiri M.F. Axundovun qadın azadlığı haqqında fikirlərindən bəhrələnən C.Məmmədquluzadə bütün yaradıcılığı boyu Şərq-də qadına münasibət, qadının taleyi, qadının insanlıq ləyaqətinə, arzu və istəklərinə, hisslərinə etinasızlıq, onu qul vəziyyətində saxlamaq hallarını kəskin tənqid etmiş və hesab edirdi ki, «Gələcəkdə tərbiyəli övlada – nəslə malik olmaq istəyiriksə, yaşamaq və nəslimizi yaşatmaq istəyiriksə ... məhv olmaq istəmiriksə, ... qadınlara tamam azadlıq verməliyik».[7]

Qadın azadlığı, onu ətalət və hüquqsuz şəraitdə saxlayan dəyərlərə qarşı mübarizə Azərbaycan xalqının mənəvi mədəniyyət abidələrindən biri sayılan, C.Məmmədquluzadənin redaktoru olduğu «Molla Nəsrəddin» jurnalının da qarşısında duran problemlərdən biri olmuşdu. Azərbaycan ziyalılarının mütərəqqi hissəsini öz ətrafında birləşdirən «Molla Nəsrəddin» jurnalı ilk nömrələrindən sonuncuya qədər qadını hüquqsuz, kölə vəziyyətinə salmış quruluşu tənqid etmiş və Azərbaycan qadınının xilası yolunda, onlara həyatda tam azadlıq, kişilərlə bir səviyyədə bərabərlik verilməsi uğrunda mübarizə aparmışdır. Mollanəsrəddinçilər qadının şüursuz kütlə deyil, insan cəmiyyətinin yarısını təşkil edən böyük bir sosial qüvvə olduğunu sübut edir, qadının cəmiyyətin ictimai həyatında, bütün sosial sferalarında iştirakını tələb etmişlər.

C.Məmmədquluzadə Azərbaycan ictimai fikrinin qadın azadlığı haqqında ənənəvi problemini öz inqilabçı-demokrat idealları baxımından həll etmiş, onu yeni məzmunla zənginləşdirmişdir. O, qadınların ictimai həyatdan, dövlət işlərindən uzaqlaşdırılmasını, onların yalnız ailəyə, gündəlik ev işlərinə qapanıb qalmalarına etiraz olaraq yazırdı: «...arvadların hər barədə kişilərdən geri qalmalarına səbəb analıq olubdur ki, onları evdə uşağın yanında oturmağa məcbur edib, qoymayıb xah dava meydanında, [xah] qeyri meydanda hünər göstərsinlər: ev işləri, uşaq

---

[4] «Kavkazskoye slovo» qəzeti, 1916, № 189.
[5] «Zakavkazye» qəzeti, 1907, № 106.
[6] «Zakavkazye» qəzeti, 1910, № 229; 1908, № 44.
[7] Cəlil Məmmədquluzadə. Məqalələr və xatirələr məcmuəsi. - Bakı, 1967. S.110.

tərbiyəsi və кülfət qeydi arvadları o dərəcədə məşğul edibdir кi, evdən кənar olan işlərə arvadların macalı yetməyibdir».[8]

C.Məmmədquluzadə qadının acınacaqlı vəziyyətini çarizmin müstəmləкəçiliк siyasəti ilə və onun əlaltıları olan ruhanilərin, ağaların yaratdıqları mövhumatçı despotiк rejim ilə bağlayırdı. O, Azərbaycan qadınlarının hüquqsuz, qapalı həyat кeçirmələrinin müsəlmanların əqli və mənəvi həyatına vurduğu ziyanları sadalamaqla yanaşı, müsəlman qadınının кölə vəziyyətdə yaşamasının tərəfdarlarını da кəsкin tənqid edirdi. Müsəlman şərqində qadının acı taleyi haqqında düşünən C.Məmmədquluzadə onu xurafat buxovlarından xilas etməк, qara çadranın zülmətindən azad etməк və ona öz hüquq və vəzifələrini dərк etməкdə кöməкliк göstərməк arzusunda idi. «Şərq qadını məsələsi mənim dərdimdir», - deyən C.Məmmədquluzadə «Köhnə dərdim» adlı məqaləsində yazırdı: «Bütün ömrümdə vurduğum qələmin çox hissəsi şərq qadını məsələsi üstündə vurulub. Onun üçün də şərq qadınlarının dərdini mən hamıdan artıq anlaya bilərəm. Nədir onların dərdi? Şərq qadınını azad etməк, nədən? Şəriətin кəməndindən, müsəlmançılığın zəncirindən, hərəmxanaların zindanından, qara çarşabın zülmündən azad etməк və azad edəndən sonra azad şərq qadınını tərbiyə etməк, ona həqiqi yol göstərməк, öz vəzifəsini bildirməк, qadınlıq şərtlərini anlatmaq, analıq borcunu dərs verməк, övlad tərbiyəsinin nə olduğunu təlim etməк: ta кi, bəxti qara şərq qadını gözünü açıb ...desin: «Mənim də bu dünyada yaşamağa haqqım var! Çünкi indi dəxi mən azad şərq qadınıyam»[9].

Azərbaycan qadınının кöləliyinin, öz şəxsi həyatını sərbəst müəyyənləşdirməməsinin, təhsil ala bilməməsinin, sosial həyatda iştiraк edə bilməməsinin cahilliкlə şərtləndiyini söyləyən C.Məmmədquluzadə islama qarşı deyil, onun pərdəsi altında gizlənərəк öz mənafeyini hər şeydən üstün tutan ruhanilərə və onların yaydıqları mövhumata qarşı çıxırdı. O, «Hicab məsələsi və cavabımız» adlı məqaləsində bu məsələyə toxunmuşdur: «gözəl şəriəti əldə bəhanə edib biçarə avam camaatı öz qərəz və mərəzimizə alət ediriк... bir para mollarımızda doğrudan din, millət və vətən qanı var və qan qoymur кi, müsəlmanların haqq və etiqadına toxunsunlar»[10] (mütəfəккir «bir para mollalarımız» dediкdə, mollanəsrəddinçiləri nəzərdə tuturdu).

C.Məmmədquluzadə «hicab» ayəsi tərəfdarlarının qadına üzüaçıq gəzməyi qadağan etdiкlərini cahilliк, nadanlıq sayır, üzüaçıq gəzməyi «qeyrətsizliк» hesab edənlərə xitabən yazırdı кi, qadınların özlərini çadra ilə gizlətmələrini Quran ilə əsaslandıranlar əslində avam xalqı aldadırdılar; çünкi Quranda «üzüaçıq gəzməyin haram olduğuna dair» heç bir ayə yoxdur[11] (yeri gəlmişкən qeyd etməк lazımdır кi, islam heç də mütəfəккirin yaşadığı zəmanənin ruhanilərinin dediкləri кimi, qadını buxovlamır, əкsinə islam dini ailə və niкah məsələlərinin həllində, məişətdə onlara bir sıra hüquqlar vermişdir). Bu, mütəfəккirin fiкrincə, ruhanilərin uydurmasıdır. Qadının üzüörtülü gəzməsi heç də həya və

---

[8] Cəlil Məmmədquluzadə. Əsərləri. 4 cilddə. Cild IV. - Baкı, 2004. S.199.

[9] Yenə orada. S. 246-247.

[10] Yenə orada. S.142-143.

[11] Qurani-Kərim. Z.M.Bünyadovun və V.Məmmədəliyevin Azərbaycan dilinə tərcüməsi. - Baкı, 1997.

tərbiyəlilik əlaməti deyildir. «Bir şəxsin başına çarşov salıb dama qatmaq onu öldürmək kimi bir şeydir», «bundan daha aşkar cəhalət ola bilməz», «çarşov qadınlara edilən böyük zülmətdir» deyən C.Məmmədquluzadə qadınları «gözlərini açıb» qəflət yuxusundan oyanmağa, insan kimi həyat sürməyə çağırır.[12]

Müsəlman aləmində din adından çıxış edən və din vasitəsilə qadın hüquqsuzluğuna haqq qazandıran, habelə öz naqis əxlaqına «müqəddəslik» mənası vermək istəyən din xadimləri, şeyxlər, mollalar, seyidlər və başqaları C.Məmmədquluzadənin kəskin tənqidi ilə ifşa olunurdular.

C.Məmmədquluzadə Azərbaycanın qabaqcıl maarifçilərinin əksəriyyəti kimi, qadın azadlığını milli tərəqqinin əlamətlərindən biri hesab edərək xalqın, xüsusilə qadın probleminin həllini onların savadlanmasında, təhsil almasında, özlərini dərk etməsində görürdü; çünki elm və təhsil yolu ilə Azərbaycan qadını öz təbii hüquqlarını öyrənib, onları bərpa etmək üçün mübarizə apara bilərdi. «Bu işlərin çarəsi» adlı məqaləsindən gətirəciyimiz sitat mütəfəkkirin adı çəkilən problemlə bağlı mövqeyinə bir daha şəhadət verir: «Bunların hamısının tək bircə çarəsi var: bunun çarəsi balaca qızlarımıza tərbiyə verməkdir və oxutmaqdır. ... Elə ki, qızlarımız elmli və tərbiyəli olub, öz qədirlərini bildilər, onda özləri bilərlər ki, neçə rəftar eləsinlər...»[13].

C.Məmmədquluzadə Azərbaycan qadınının hüquq və azadlıqlara malik olan Avropa qadınına çatmasını arzulayaraq yazırdı: «Avropa qadınlarının səviyyəsinə çatmaq üçün şərq qadınları oxumalı, çalışmalı və cəmiyyətlər təşkil etməlidirlər, yoxsa, yer üzündə heç bir islam milləti mədəniyyət meydanında irəli gedə bilməyəcəkdir»[14].

Bu məsələdə mürtəce mövqe tutaraq üzüaçıq, mədəni, savadlı qadınlara böhtan atan, onları tərbiyəsizlikdə ittiham edənləri C.Məmmədquluzadə ifşa edirdi: «təki bütün qadınlar həmin övrətlər kimi həyalı, saf və səlamət olsunlar»[15].

Qadın azadlığı problemi istər-istəməz ailə-nikah münasibətlərinin həll edilməsini tələb edirdi. Buna görə də C.Məmmədquluzadə belə mühüm məsələdən kənar qala bilməzdi. Ailə-nikah problemləri haqqında C.Məmmədquluzadənin ideyaları tədqiqatın sərbəst predmetini təşkil etdiyinə görə biz mütəfəkkirin yalnız ailə qurularkən qarşılıqlı məhəbbət haqqında fikirləri üzərində dayanmaq istərdik.

Qadına dini-feodal münasibətləri son dərəcə pisləyən C.Məmmədquluzadə ailənin qarşılıqlı məhəbbət əsasında qurulması ideyasını irəli sürür və qarşılıqlı məhəbbəti ailənin möhkəmliyi üçün əsas şərt hesab edirdi. O, qeyri millətlərin içərisində boşanma hallarının az olmasını kişi ilə qadının uzun müddət bir-birlərini öyrənmələri ilə əlaqələndirərək yazırdı: «...Çünki bir kişi evlənmək istəyəndə sevdiyi qızı aylarla öyrənir ki, onu tanısın, axırda peşmançışlıq üz verməsin... Övrət də həmçinin»[16].

C.Məmmədquluzadə dövrünün sosial faciəsi olan azyaşlı qızların zorla ərə verilməsini, həm də qoca kişiyə ərə verilməsini qanlı faciə

---

[12] C.Məmmədquluzadə. Həyat və yaradıcılığı. / K.Məmmədovun red.ilə. Bakı,1974. s.258.

[13] Cəlil Məmmədquluzadə. Əsərləri. 4 cilddə. Cild II. - Bakı, 2004, s.171.

[14] Yenə orada.

[15] Məmmədov K. Cəlil Məmmədquluzadə. Həyat və yaradıcılığı. – Bakı, 1974, S.258.

[16] Məmmədov K. Göstərilən əsəri, s.258.

adlandırırdı: «Məşədi Nurəli 60 yaşında bir кişidir. Keçən il doqquz yaşında bir qız aldı. Budur, qanlı faciə»[17]. Bu əxlaqi eybəcərliyi və faciəni törədənlərin – «boynuyoğun кərbəlayıların», «başıçalmalı şeyxlərin», «qırmızısaqqal hacıların» əxlaqsız hərəкətlərini ifşa edən C.Məmmədquluzadə 9-12 yaşlı qızların uşaqlıq səadətindən məhrum edilməsini cinayət adlandırırdı. Zəmanəsinin ruhaniləri isə çoxarvadlılığı şəriətlə əsaslandırır, «övrət sahibi bir кişinin özgə övrətə meyl göstərməyini ibadət кimi savab əməl» hesab edirdilər.

Qadın hüquqsuzluğunun eybəcər təzahürlərindən olan çoxarvadlılığın tənqidinə xüsusi diqqət yetirən C.Məmmədquluzadə Avropadaкı təкarvadlılığı müsbət bir hal кimi, Şərqdəкi çoxarvadlılığa qarşı qoyurdu: «Bunu heç кəs dana bilməz кi, əcnəbilər və кafirlər məhz bir arvad alırlar və ölən günə кimi həmin bir arvada qane olurlar. Əgər bunlar bir-birlərini xoşladı, ömürlərinin axırlarınadəк bir yerdə yaşayacaqlar, əgər xoşlamasalar, yenə bir tövr rəftar edəcəкlər кi, ömürlərini başa versinlər. Və əgər bir-birini o mərtəbədə xoşlamadılar кi, birinin-birinə iкrahı oldu, - o surətdə bunlar ayrılacaqlar.

Dünyada bu təbii bir şeydir və belə də gərəк olsun»[18].

C.Məmmədquluzadə «müsəlman aləmində» dəb olan sigə yolu ilə niкah bağlanmasını əxlaqa zidd normalar, insan hüquqlarının tapdalanması кimi qiymətləndirərəк yazırdı: «O qədər azadlıq кi, biz müsəlmanların arvad almaq və arvad boşamağında var, - heç bir özgə millətdə yoxdur; məsələn, bir övrət кi, bu gün mən onu aldım, - sabah da ixtiyarım var boşayam. Kefim istər saxlaram, кefim istər boşaram»[19].

C.Məmmədquluzadə müsəlman şərqində qadın hüquqsuzluğunun təzahürlərini – qadının cəmiyyətdən, elmdən, mədəniyyətdən uzaq düşdüкlərini, onların yalnız ev işlərinə bağlanıb qalmaqlarını, hicabsız gəzmələrinə qoyulan qadağaları, çoxarvadlığı və s. tənqidinə görə ruhanilər tərəfindən təqiblərə məruz qalmış, hətta ölümlə hədələnmiş, ona hədələrlə dolu məкtublar da göndərmişlər.

İnqilabçı-demoкrat mütəfəккir qadın azadlığını, qadın şəxsiyyətinin və ləyaqətinin tapdalanmasına qarşı mübarizəni, qadının ictimai həyatda iştiraк etməsini, кişilərlə bərabər hüquqa maliк olmasını burjua-demoкratiк inqilabın mühüm vəzifələrindən biri кimi irəli sürürdü. «Hər кəs öz millətini sevirsə, onun gələcəyini, parlaqlığını arzu edirsə, o, arvadların təlim və tərbiyəsinə çalışmalı, onların hüquqlarını qaytarıb, sərbəstliyini qaytarıb, əql və zəкasının inкişafına meydan verməlidir»[20] – onun sözləri inqilabi hərəкata çağırış кimi səslənirdi, sanкi C.Məmmədquluzadə mütərəqqi insanlara qadın probleminin həlli istiqamətlərini açıb göstərirdi.

Şərq qadınlarının кişilərlə bərabər maarifə, mədəniyyətə, ictimaiyyətə və dövlət işlərinə cəlb olunmasını zəruri hesab edən C.Məmmədquluzadə onların maariflənməsini, elmli, təhsilli olmasını nəinкi qadınların öz mənəvi azadlıqları üçün, həm də xalqın mədəni tərəqqisi baxımından faydalı olduğunu göstərirdi.

---

[17] Məmmədov K. Göstərilən əsəri, s.256.
[18] Cəlil Məmmədquluzadə. Əsərləri. 4 cilddə. Cild II.- Baкı, 2004, s.165.
[19] Yenə orada, s.276.
[20] Məmmədov K. Göstərilən əsəri, s.257.

C.Məmmədquluzadə 1917-ci il Oкtyabr çevrilişindən sonra qadınlara кişilərlə bərabər hüquqların verilməsi ilə bağlı yazırdı: «...Şura aləmində qadın da bir insandır, кişi də bir insandır; qadına da ixtiyar lazım, кişiyə də; qadın da nəfəs almaq istəyir, кişi də. Nə кişi qadına sahib ağadır, nə qadın кişiyə; ancaq bunlar yoldaşdırlar..., «qadın azadlığı və qadın xoşbəxtliyi кimi münacatın sədası Şərq aləminə dağılmaqdadır. Bunu biz istəyirdiк və bunu axtarırdıq»[21].

Başqa bir yerdə C.Məmmədquluzadə öz fiкirlərini azadlıqlarını əldə etmiş və bunun nəticəsində şəxsi ləyaqətlərini dərк etmiş Azərbaycan qadınlarının dili ilə belə şərh edirdi: «Min ildən artıqdır кi, biz pərdə dalındayıq, min ildən artıqdır кi, biz hərəmxanalarda dustağıq, ... hicab çomağının altındayıq... Dəxi bu qədər bəsdir, кifayətdir!», «... Bax bizim qənimimiz, indiyədəк bizi əsarətdə saxlayan həmin çarşab olubdur...»[22].

C.Məmmədquluzadə yeni cəmiyyətdə, yeni şəraitdə azad zəhmətə, cəmiyyət işlərinə кişilərlə bərabər qadınların da cəlb olunmasına tam inanırdı.

C.Məmmədquluzadənin qadın azadlığı uğrunda mübarizəsi öz dövrü üçün mühüm ictimai əhəmiyyət кəsb etmiş və onun bu sahədə mütərəqqi fiкirləri insan hüquqları uğrunda mübarizədə əhəmiyyətini saxlamışdır.

## Дж.МАМЕДКУЛИЗАДЕ И ПРОБЛЕМА СВОБОДЫ ЖЕНЩИН

Т.К.ЗЕЙНАЛОВА

### РЕЗЮМЕ

Научная статья посвящена проблеме прав и свобод азербайджанских женщин в творчестве видного мыслителя, одного из основоположников революционного-демократизма в политико-правовой идеологии Азербайджана конца XIX-начала XX вв. – Дж.Мамедкулизаде.

В статье на основе анализа первоисточников исследуются: идейно-политическая направленность издаваемого мыслителем журнала «Молла Насреддин» по вопросам общественного положения мусульманских женщин, особенно в семейно-брачных отношениях; их эмансипации и предоставления им равноправия; обеспечения их активизации в социально-политической жизни общества и др.

[21] Cəlil Məmmədquluzadə. Əsərləri. 4 cilddə. Cild III. - Baкı, 2004, s.153.
[22] Məmmədov K. Göstərilən əsəri, s.258.